www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — № -09 (1835) 15 may 2026-cı il



# Akademik Zərifə Əliyevanın 103 illiyi münasibətilə konfrans təşkil olunub

Rektor, professor Gəray Gəraybəyli: Zərifə xanım öz elmi irsi və mənəvi dəyərləri ilə hər bir azərbaycanlı üçün örnəkdir

səh.2

## ATU-nun rəhbərliyi Ulu Öndərin əziz xatirəsini yad edib

səh. 2

## Stomatologiya sahəsində müasir Tədris Mərkəzi açılıb

səh. 2

## Azərbaycan əhalisinin 8-10 faizi talassemiya daşıyıcısıdır

səh. 7




## "Sağlamlıq və Texnologiyanın Zirvəsi" adlı konfrans keçirilib

Tədbirin "Şəhərsalma və Memarlıq İli" çərçivəsində keçirilməsi xüsusi əhəmiyyət daşıyır

səh. 2

## ATUREK 14 - "Yüksəlişə doğru" konfransı baş tutub

*Rektor Gəray Gəraybəyli: Gənc tədqiqatçıların elmi potensialının artırılması əsas prioritetlərdəndir*

səh. 3

## Tələbələr klinik-praktik olimpiadada yarışıb

*"Çiyin-çiyinə tibb naminə" adlı universitetlərarası olimpiada Beynəlxalq Tibb Bacıları Gününə həsr olunub*

səh. 5



## Vatikan xəstəxanasının nümayəndə heyəti qonağımız olub

Rektorla görüşdə pediatriya sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib

səh. 2

## ATU-nun rəhbərliyi Ulu Öndərin əziz xatirəsini yad edib



Azərbaycan Tibb Universitetinin rəhbərliyi Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü münasibəti ilə Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət edib.

Nümayəndələrimiz müasir, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi xadim, xalqımızın dahi oğlunun əziz xatirəsini böyük ehtiramla anıb, məzarı önünə gül dəstələri qoyub.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da məzarı ziyarət edilərək, əziz xatirəsi dərin hörmətlə yad edilib və üzərinə gül dəstələri düzülüb.

## Vatikan xəstəxanasının nümayəndə heyəti qonağımız olub



**Ölkəmizdə rəsmi səfərdə olan Vatikanın "Bambino Gesu" Pediatriya Xəstəxanasının nümayəndə heyəti Azərbaycan Tibb Universitetində olub.**

Xəstəxananın prezidenti, professor Titsiano Onestinin rəhbərlik etdiyi və tərkibində Səhiyyə direktoru Massimiliano Raponi, Metabolik xəstəliklər üzrə klinik və tədqiqat bölməsinin rəhbəri Karlo Dionisi Viçi, Beynəlxalq fəaliyyətlər rəhbəri Sandro Kristaldinin yer aldığı heyət ilə görüş keçirilib.

Görüşdə rektor, professor Gəray Gəraybəyli vatikanlı qonaqlara ölkəmizdə səhiyyə sisteminin davamlı inkişafı istiqamətində aparılan genişmiqyaslı islahatlar, həyata keçirilən mühüm layihələr haqda məlumat verib. Səhiyyə sahəsi, xüsusən pediatriya üzrə qlobal əməkdaşlıqdan da danışan rektor beynəlxalq əlaqələrin ölkələrin səhiyyə sistemlərinin sürətli inkişafının təmin olunması, eyni zamanda müasir tibbi biliklərin paylaşılması baxımından böyük əhəmiyyət daşıdığını, ATU-nun da belə əlaqələrin qurulmasına hər zaman maraq göstərdiyini diqqətə çatdırıb.

Öz növbəsində, professor Titsiano Onesti səfərin məqsədindən söz açaraq, bu sahədə beynəlxalq əlaqələrin genişləndirilməsinə xüsusi diqqət yetirildiyini, eyni zamanda Azərbaycan, o cümlədən ATU ilə pediatriya sahəsində əməkdaşlığa hazır olduqlarını diqqətə çatdırıb.

Daha sonra qonaqlar Azərbaycan Tibb Universitetinin yaranma tarixi və fəaliyyət sahələrini əks etdirən təqdimat videosunu izləyiblər.

Ardınca M.Raponi "Bambino Gesu"nun ümumi fəaliyyəti, akademik mühit və elmi-tibbi araşdırma istiqamətləri, S.Kristaldi isə xəstəxananın yaranma tarixi və inkişaf mərhələləri, həmçinin beynəlxalq əməkdaşlıq üzrə geniş təqdimatla çıxış ediblər. K.D.Viçi isə təqdimatında metabolik xəstəliklər, diaqnoz və müalicə yolları ilə yanaşı, Azərbaycanla əməkdaşlıq imkanları və əlaqələrin daha da dərinləşdirilməsi üçün İtaliya tərəfinin təklifləri barədə ətraflı məlumat verib.

Fikir mübadiləsindən sonra vatikanlı qonaqlar Tədris Cərrahiyyə Klinikasını ziyarət edərək, Neonatologiya şöbəsində yaradılan mövcud şəraitlə yaxından tanış olublar.

## Stomatologiya sahəsində müasir Tədris Mərkəzi açılıb



**Universitetimizin Tədris Stomatoloji Klinikasının nəzdində müasir tələblərə cavab verən Tədris Mərkəzinin açılış mərasimi keçirilib.**

Rektor, professor Gəray Gəraybəyli stomatologiya sahəsində təhsil alan tələbələrin praktik vərdişlərini, bilik və bacarıqlarını artırmaq məqsədilə yenilənmiş Tədris Mərkəzində yaradılmış müasir infrastruktur, gücləndirilmiş maddi-texniki baza və tədris imkanları ilə yaxından tanış olub.

Tədris işləri üzrə prorektor, professor Anar Ağayev, Tərbiyə işləri üzrə prorektor, dosent Mahir Səfərov, İnzibati-təsərrüfat işləri üzrə prorektor İlqar Mehrabov, klinikanın direktoru İmran Ağayev və digər məsul şəxslərin iştirak etdiyi açılış mərasimində Mərkəzin fəaliyyəti haqda ətraflı məlumat verilib. Qeyd edilib ki, əsaslı şəkildə yenilənən Mərkəz ən son texnologiyalara uyğun avadanlıq, müasir stomatoloji qurğular, zəruri tibbi ləvazimat və mulyajlarla tam təmin edilib.

Tədris Mərkəzində yaradılmış şəraiti ümumilikdə müsbət dəyərləndirən rektor, müvafiq tapşırıq və tövsiyələrini verib.

# Akademik Zərifə Əliyevanın 103 illiyi münasibətilə konfrans təşkil olunub

## Rektor, professor Gəray Gəraybəyli: Zərifə xanım öz elmi irsi və mənəvi dəyərləri ilə hər bir azərbaycanlı üçün örnəkdir

**ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın anadan olmasının 103 illiyinə həsr olunmuş "İşığa baxış" adlı tədbir keçirilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra tədbirin aparıcısı, II Müalicə-profilaktika fakültəsinin tələbəsi Lalə Qasımova qonaqları salamlayaraq tədbirin əhəmiyyətini diqqətə çatdırıb.**







Rektor, professor Gəray Gəraybəyli akademik Zərifə xanımın həm elmi irsi, həm də mənəvi keyfiyyətlərinin cəmiyyət üçün müstəsna əhəmiyyətini vurğulayıb. Rektor qeyd edib ki, 1947-ci ildə ATU-nu bitirən Zərifə xanım, xüsusilə traxoma xəstəliyinin müalicəsi və sənaye oftalmologiyasının təşəkkülündə fundamental xidmətləri olan dünya miqyaslı alimdir.

Rektor G.Gəraybəyli əlavə edib ki, akademik Zərifə Əliyevanı xalqın yaddaşında əbədiləşdirən amil təkcə onun elmi uğurları deyil, həm də səmimiyyəti, təvazökarlığı və ali insani keyfiyyətləridir. Görkəmli alim, qayğıkeş ana və əsl ziyalı kimi onun qoyduğu zəngin irs bu gün də tibb işçiləri və gələcək nəsillər üçün bir həyat məktəbi, mənəvi örnək rolunu oynayır.

Azərbaycan Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Elnarə Muradova bildirib ki, akademik Zərifə Əliyeva Azərbaycan səhiyyəsi və elminin inkişafında mühüm xidmətləri olan görkəmli şəxsiyyətlərdən biridir. O vurğulayıb ki, alimin yüksək humanist dəyərləri, insanlara həssas və qayğıkeş münasibəti, eləcə də ziyalılığı onu cəmiyyət üçün əsl nümunəyə çevirib.

Oftalmologiya kafedrasının müdiri, professor Paşa Musayev (Qəlbinur) qeyd edib ki, Zərifə Əliyevanın elmi fəaliyyəti yalnız nəzəri tədqiqatlarla məhdudlaşmayıb, eyni zamanda praktik tibbdə də mühüm yeniliklərə yol açıb. O əlavə edib ki, alimin formalaşdırdığı elmi məktəb bu gün də inkişaf etməkdədir və çoxsaylı mütəxəssislərin yetişməsində əhəmiyyətli rol oynayır.

Akademik Zərifə Əliyevanın apardığı dərin elmi fəaliyyəti ilə beynəlxalq miqyasda tanındığını diqqətə çatdıran Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Qoşqar İsmayılov vurğulayıb ki, akademikin tədqiqatları xüsusilə peşə xəstəlikləri və göz patologiyalarının öyrənilməsi sahəsində mühüm əhəmiyyət daşıyıb, eyni zamanda yüksək insani keyfiyyətləri ilə yadda qalıb.

Tədbirin bədii hissəsində "Həyat" teatr klubu tərəfindən hazırlanmış "Göz həkimi" tamaşasından səhnəcik təqdim olunub. Səid Qənbərin rejissorluğu və Aytac Şükürlünün bədii rəhbərliyi ilə hazırlanan səhnəcikdə İsmət Ağazadə (Şahbazov), Aysun Əliyeva (İradə), Məhəmməd Məmmədli (Rauf), Rövşanə Hüseynzadə (Nərminə), Elgün Abdullayev (Talıbov), Maarif Eyvazov (Geoloq), Leyla Qafarova (Geoloqun həyat yoldaşı), Fatimə Tahirova (Gülər) iştirak edərək obrazları yüksək peşəkarlıqla canlandırıblar. Səhnəcikdə oftalmologiya sahəsində elmi fəaliyyət, dissertasiya prosesi və peşə etikası mövzuları əks olunub, peşəkar məsuliyyət və mənəvi dəyərlərin önəmi vurğulanıb.

Konfrans daha sonra elmi sessiyalarla davam etdirilib. Birinci sessiyada professor Paşa Musayev və dosent Səriyə Quliyevanın moderatorluğu ilə dosent Tural Qəlbinurun "Küt zədəyə bağlı torlu qişa qopmaları", dosent Hafiz Qəhrəmanovun "Katarakta cərrahiyyəsi: hansı göziçi linza, nə zaman və nə üçün?" və dosent Qabil Zülfiyevin "Miopiyanın inkişafı, risk amilləri və profilaktik tədbirlər" mövzularında elmi məruzələri dinlənilib.

Dosentlər H.Qəhrəmanov və Q.Zülfiyevin moderatorluq etdiyi ikinci sessiyada isə Tədris Cərrahiyyə Klinikasının Oftalmologiya şöbəsinin müdiri, dosent Qurban İsmayılovun "Refraktiv cərrahiyyə zamanı və sonra rast gəlinən fəsadlar: klinik hallar üzərində təhlil", dosent Vəfa Məmmədovanın "Göz yaşı aparatı və onun xəstəlikləri: klinik hallar üzərində təhlil", dr. Mehri Qurbanovanın "Zığ gəmi təmiri və tikintisi zavodunun işçilərində peşədən asılı göz xəstəliklərinin yayılması" və dr. Gülnar Əliyevanın "Serebrovaskulyar patologiyaların erkən aşkarlanmasında oftalmoloji müayinələrin rolu: klinik hallar əsasında təhlil" adlı çıxışları təqdim olunub.

## "Sağlamlıq və Texnologiyanın Zirvəsi" adlı konfrans keçirilib

### Rektor, professor Gəray Gəraybəyli: Tədbirin "Şəhərsalma və Memarlıq İli" çərçivəsində keçirilməsi xüsusi əhəmiyyət daşıyır



**"Şəhərsalma və Memarlıq İli" çərçivəsində, Ulu Öndər Heydər Əliyevin anadan olmasının ildönümünə həsr olunmuş "Sağlamlıq və Texnologiyanın Zirvəsi" adlı beynəlxalq elmi-praktik konfrans təşkil edilib.**

Konfransın açılışında çıxış edən rektor, professor Gəray Gəraybəyli "Sağlamlıq və Texnologiyanın Zirvəsi" mövzusuna həsr olunan bu mötəbər tədbirdə yerli mütəxəssislərlə yanaşı, Birləşmiş Krallıq, Özbəkistan, Qazaxıstan və Qırğızıstandan qonaqların da iştirak etdiyini bildirib. Rektor üç gün davam edən konfransın əhəmiyyətini vurğulayaraq, qeyd edib ki, əsas məqsəd müasir tibbdə innovativ texnologiyaların tətbiqi, multidissiplinar yanaşmaların elmi müstəvidə müzakirəsi və bu sahədə yeni həllərin təqdim olunmasıdır.

Builki tədbirin ən mühüm yeniliyinin "Şəhərsalma və Memarlıq İli" ilə əlaqədar təşkil olunan xüsusi panel olduğunu vurğulayan rektor qeyd edib ki, bu bölmədə "sağlam şəhər" konsepsiyası, yaşıl infrastrukturun ictimai sağlamlığa təsiri və şəhərsalma ilə tibb elminin inteqrasiyası elmi əsaslarla təhlil edilib.

Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsinin rəisi Read Qasımov çıxışına belə mühüm platformanın təşkilinə görə universitet rəhbərliyinə minnətdarlıq etməklə başlayıb. O, müasir dövrdə şəhərlərin inkişafının insanların həyat keyfiyyəti və sosial rifahı ilə ölçüldüyünü vurğulayıb. R.Qasımov Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strateji kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan olunmasının bu sahəyə dövlət qayğısının bariz nümunəsi olduğunu vurğulayıb. Həmçinin Bakının 2040-cı ilədək inkişafına dair Baş Plan çərçivəsində reallaşdırılan yaşıl dəhlizlər və ekoloji layihələr, eləcə də işğaldan azad edilmiş ərazilərdə tətbiq olunan "ağıllı şəhər" və "ağıllı kənd" modelləri haqqında məlumat verib.

Türkiyənin Ege Universitetinin dosenti Aziz Eftekhari çıxışında Azərbaycan və Türkiyə universitetləri arasındakı elmi əməkdaşlığın uğurlu inkişafından bəhs edib. O, nanobiotexnologiya və innovativ elmlərin müasir şəhərsalma və səhiyyə üçün xüsusi əhəmiyyət daşıdığını, bu sahədə tərəfdaşlıqların genişlənməsinin vacibliyini diqqətə çatdırıb.

Elmi işlər üzrə prorektor, professor Məlahət Sultan konfransın universitetin 2025-26-cı illər üzrə elmi fəaliyyətinin nəticələrinə həsr olunduğunu diqqətə çatdırıb. O bildirib ki, tədbir müasir elmi yanaşmaların və innovativ texnologiyaların səhiyyə sahəsində tətbiqinin əhəmiyyətini bir daha nümayiş etdirir.

Açılış mərasimindən sonra konfrans plenar sessiyalar və müxtəlif istiqamətlər üzrə elmi məruzələrin təqdimatı ilə davam edib.

# ATUREK 14 - “Yüksəlişə doğru” konfransı baş tutub

## Rektor, professor Gəray Gəraybəyli: Gənc tədqiqatçıların elmi potensialının artırılması əsas prioritetlərdəndir

**Universitetimizdə ATUREK 14 - “Yüksəlişə doğru” adlı rezident və magistrantların elmi-praktik konfransı keçirilib. Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin universitetin foyesində yerləşən büstü önünə gül dəstələri qoyaraq onun xatirəsini ehtiramla yad ediblər. Daha sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Vətən uğrunda canından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla anılıb.**






İctimai TV-nin əməkdaşı Aydın İsmayılovun aparıcılığı ilə baş tutan tədbirdə universitetin rektoru, professor Gəray Gəraybəyli giriş nitqi ilə çıxış edib. O qeyd edib ki, ənənəvi olaraq hər il keçirilən ATUREK konfransı bu il də Ümummilli Liderin xatirəsinə həsr olunub. Rektor vurğulayıb ki, bu konfrans gənc tədqiqatçıların elmi potensialının inkişafı və müasir bilik mübadiləsi üçün mühüm platformadır. Rektor universitetin illər ərzində yetişdirdiyi mütəxəssislərin həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə milli səhiyyə sistemini layiqincə təmsil etdiyini bildirib. O, həmçinin Ümummilli Liderin əsasını qoyduğu səhiyyə strategiyasının bu gün innovativ islahatlarla davam etdirildiyini və xüsusilə 44 günlük Vətən müharibəsində tibb işçilərinin fədakarlığının bu sahədəki vətənpərvərlik ruhunu bir daha göstərdiyini qeyd edib.

Konfrans iştirakçılarını səhiyyə naziri Teymur Musayevin adından salamlayan nazir müavini Nadir Zeynalov bildirib ki, ölkədə həyata keçirilən islahatlar nəticəsində tibb təhsili müəssisələrinin sayı artıb, yeni fakültələr və beynəlxalq əməkdaşlıqlar formalaşıb. Onun sözlərinə görə, bu proseslərin əsas məqsədi yüksək ixtisaslı kadrların hazırlanması və səhiyyə xidmətlərinin keyfiyyətinin artırılmasıdır. Müasir həkimin yalnız nəzəri biliklə deyil, eyni zamanda elmi düşüncə və tədqiqat bacarıqları ilə seçilməli olduğunu vurğulayan nazir müavini, konfransın gənc tədqiqatçılar üçün mühüm təcrübə platforması olduğunu qeyd edib.

İ.M.Seçenov adına Birinci Moskva Tibb Universitetinin Bakı filialının rektoru, professor Əziz Əliyev çıxışında müasir tibbin əsasını təşkil edən sübutlu təbabətin və beynəlxalq protokolların tətbiqinin əhəmiyyətindən danışıb. Bildirib ki, həkimlər daim öz biliklərini yeniləməli və elmi tədqiqatlara inteqrasiya olunmalıdırlar.

Daha sonra ATUREK 14 konfransına həsr olunmuş “Yüksəlişə doğru” adlı videoçarx nümayiş etdirilib.

Rezidentura və magistratura şöbəsinin müdiri, dosent İlhamə Mustafayeva çıxışında rezidentura və magistratura təhsilinin gənc mütəxəssislərin hazırlanmasında mühüm rol oynadığını vurğulayıb. Qeyd edib ki, ölkədə səhiyyə sahəsində aparılan islahatlar, təhsil proqramlarının beynəlxalq standartlara uyğunlaşdırılması və praktik biliklərin gücləndirilməsi bu sahənin inkişafını təmin edir.

Ağız və üz-çənə cərrahiyyəsi üzrə V kurs həkim-rezident Süreyya İsgəndərova isə çıxışında öz təəssüratlarını bölüşərək bildirib ki, uğur yolu çətinliklərdən keçir. Onun sözlərinə görə, əzmkarlıq, zəhmət və davamlı inkişaf sayəsində bütün maneələri aşmaq mümkündür və əldə olunan nəticələr məhz bu zəhmətin bəhrəsidir.

Rəsmi açılış mərasimi Azərbaycanın xalq artisti Mənsum İbrahimovun tarda xalq artisti Elçin Həşimov və kamançada əməkdar artist Elnur Əhmədovun müşayiəti ilə ifa etdiyi musiqi sədaları altında yekunlaşıb.

Açılışdan sonra konfransın elmi hissəsi 15 panel üzrə işini davam etdirib və müxtəlif istiqamətlərdə elmi məruzələr təqdim olunub.

**Aytac ƏSƏDOVA**

# Ümummilli Liderin tariximizdə müstəsna yeri var



**Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü münasibətilə universitetimizdə tədbir keçirilib.**

Tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyasının ATU üzrə ərazi partiya təşkilatının sədri, Patoloji fiziologiya kafedrasının müdiri, professor Sabir Əliyev Azərbaycan xalqının tarixində Heydər Əliyevin rəhbərlik etdiyi dövrlərin müstəsna yeri olduğunu diqqətə çatdırıb. Professor Ulu Öndərin həm sovet dövründə, həm də müstəqillik illərində ölkəyə rəhbərlik etdiyi mərhələlərin Azərbaycanın inkişafında mühüm dönüş nöqtəsi olduğunu vurğulayıb.

Onun sözlərinə görə, 1969-cu ildə Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin I katibi seçilməsi ilə respublikanın ictimai-siyasi, iqtisadi və mədəni həyatında əsaslı dəyişikliklər başlanıb. Professor S.Əliyev xüsusi vurğulayıb ki, Ulu Öndər rəhbərliyinin ilk aylarında Bakı Dövlət Universitetində keçirilən tədbirdə Azərbaycan dilində çıxış edərək milli dilə və milli kimliyə verilən önəmi nümayiş etdirib və bu addım milli özünüdərk və milli ruhun güclənməsində mühüm rol oynayıb. Çıxışında Azərbaycanın tarixinə böyük zəfərlər yazdıran Prezident İlham Əliyevin fəaliyyətinə də diqqət çəkən professor bildirib ki, dövlət başçısı Ulu Öndərin siyasi kursunu uğurla davam etdirərək xalqın ən böyük arzusunu gerçəkləşdirib, Qarabağ işğaldan azad olunub.

Daha sonra Tibbi mikrobiologiya və immunologiya kafedrasının müdiri, professor Həqiqət Qədirova çıxış edərək Heydər Əliyevin milli kadr potensialının formalaşdırılması, səhiyyə və tibb təhsilinin inkişafı istiqamətində gördüyü mühüm işlərdən danışıb.

Sonra Ümummilli Liderin həyat və fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub. Ardınca çıxış edən I Müalicə-profilaktika fakültəsinin 3-cü kurs tələbəsi Azərin Şükürlü Ulu Öndərin Azərbaycan gəncləri üçün hər zaman örnək olduğunu bildirib.

# Anlaşma memorandumu əməkdaşlığa imkan yaradacaq



Azərbaycan-Britaniya Peşəkarları Assosiasiyasının (AABP) rəhbərliyi universitetimizin qonağı olub. Görüşdə rektor, professor Gəray Gəraybəyli qloballaşan dünyada gedən rəqəmsal inkişaf və bu tərəqqinin təhsilə inteqrasiyası ilə bağlı vacib məqamlara toxunub. Rektor təhsildə yeni tədris texnologiyalarının tətbiqinin xüsusi əhəmiyyət daşıdığını, bu yanaşmanın ali təhsilin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynadığını, ümumiyyətlə müasir dövrdə ali təhsildə yeni tədris texnologiyalarının tətbiqinin keyfiyyətli təhsil sisteminin əsas tələblərindən biri kimi ortaya çıxdığını diqqətə çatdırıb.

Assosiasiyanın təsisçisi və icraçı direktoru İlhamə Cəfərli də tibbi təhsildə ümumi yanaşma, həmçinin müasir kriteriyalar haqda fikirlərini bildirərək, ATU ilə bu istiqamətdə əməkdaşlığa hazır olduqlarını bildirib. Qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi ilə davam edən görüşdə tibb təhsili, elmi-tədqiqat fəaliyyəti, beynəlxalq əməkdaşlığın genişləndirilməsi və peşəkar inkişaf istiqamətləri üzrə birgə fəaliyyət perspektivləri nəzərdən keçirilib. Görüş ATU və AABP arasında anlaşma memorandumunun imzalanması ilə yekunlaşıb.

# Ulu Öndərin xeyir-dua verdiyi 1981-ci il məzunları görüşüb



**Nəriman Nərimanov adına Azərbaycan Tibb İnstitutunun 1981-ci il Müalicə-profilaktika və Fizioterapiya fakültələrinin məzunlarının görüşü keçirilib.**

45 ildən sonra baş tutan görüşdə bildirilib ki, həmin məzunların əmək fəaliyyətinə başlamasına 1981-ci ildə Tibb İnstitutunun 50 illiyi ilə əlaqədar keçirilən yubiley tədbirində məhz Ulu Öndər Heydər Əliyev xeyir-dua verib. I və II Qarabağ müharibələrində də yaxından iştirak edən məzunlar yaralı əsgər və zabitlərimizə ixtisaslaşmış tibbi yardım göstəriblər. Fədakarlıq nümayiş etdirən və I Qarabağ müharibəsində şəhid olan məzunlardan ikisinə - Muxtar Qasımov və Cingiz Mustafayevə ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adı verilib.

Bundan əlavə, ATİ-nin 1981-ci il məzunları arasında 1 nəfər Milli Məclisin deputatı, 8 nəfər Qarabağ müharibəsi veteranı, 5 nəfər “Tərəqqi” medallı, 5 nəfər Əməkdar həkim, 1 nəfər 3-ci dərəcəli Əmək ordenli , 1 nəfər “Şərəf” nişanı ordenli həkimlər yer alır. Eyni zamanda onlardan 4 nəfəri tibb üzrə fəlsəfə doktoru, 3 nəfər tibb elmlər doktoru, 4 nəfər isə professor adını daşıyır.

Görüşdə prorektor Məlahət Sultan, Patoloji fiziologiya kafedrasının müdiri, professor Sabir Əliyev, İnsan anatomiyası və tibbi terminologiya kafedrasının professoru Vaqif Şadlinski, dosent Rəşid Mahmudov, professor Nəsimi Qasımov və digər fəxri qonaqlar da çıxış edərək, bu gözəl günlə bağlı fikirlərini bölüşüblər.

# Yozqat Bozok Universiteti ilə əməkdaşlıq edəcəyik



**Rektor, professor Gəray Gəraybəyli Türkiyənin Yozqat Bozok Universitetinin rektoru, professor Evren Yaşarı qəbul edib.**

ATU-nun rəhbəri iki qardaş ölkə arasında təhsil sahəsində əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün atılan addımlar, bu istiqamətdə görülən ardıcıl tədbirlər və əldə olunan nailiyyətlərdən, həmçinin iki dövlətin təhsil müəssisələri arasında əlaqələrin genişləndirilməsi perspektivlərindən söz açıb.

Professor E.Yaşar da Azərbaycan və Türkiyə universitetləri arasında sıx əməkdaşlığa toxunaraq, bu sahədə münasibətlərin daha da dərinləşdirilməsinə göstərilən qarşılıqlı maraqdan danışıb.

Görüş zamanı iki ali təhsil müəssisəsi arasında elmi-tədqiqat, təhsil və innovasiya sahələrində əməkdaşlıq imkanları geniş müzakirə olunub. Tərəflər akademik heyət və tələbələrin mübadiləsi, birgə elmi layihələrin reallaşdırılması, konfrans və simpoziumların təşkili, həmçinin tibb sahəsində qabaqcıl təcrübə və biliklərin paylaşılması istiqamətlərində əməkdaşlıq perspektivlərini dəyərləndiriblər.

Daha sonra Yozqat Bozok Universiteti ilə Azərbaycan Tibb Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb.

# Hərbi tibb fakültəsində anım tədbiri təşkil olunub



Hərbi tibb fakültəsində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü münasibətilə tədbir keçirilib. Əvvəlcə zabit heyəti Ulu Öndərin büstünü ziyarət edərək önünə gül dəstələri qoyub.

Tədbirdə çıxış edən fakültə rəisi, tibb xidməti polkovniki Məharət Rzayev Ümummilli Liderin dövlətçiliyin inkişafı, Azərbaycan Ordusunun formalaşdırılması və milli dəyərlərin qorunmasında göstərdiyi tarixi xidmətlərdən danışıb. O bildirib ki, Heydər Əliyevin zəngin dövlətçilik irsi bu gün də Azərbaycan xalqı və gəncliyi üçün örnəkdir.

Fakültə rəisinin tədris işləri üzrə müavini – şöbə rəisi, tibb xidməti polkovniki Vüsal Rüstəmzadə də çıxışında Ulu Öndərin təhsil siyasətinə verdiyi önəmdən, xüsusilə hərbi təhsil sahəsində həyata keçirilən uğurlu islahatlardan bəhs edib. Kursantlar adından çıxış edən Əkrəm Gözəlov isə Ümummilli Liderin gənclər siyasəti barədə ətraflı məlumat verib.

# “Sağlamlıq və Texnologiyanın Zirvəsi” konfransı çərçivəsində kurs və təlimlər, tələbə paneli təşkil olunub

**“Sağlamlıq və Texnologiyanın Zirvəsi” konfransı çərçivəsində 3 gün ərzində müxtəlif istiqamətləri əhatə edən sessiyalar, eləcə də kurs və təlimlər təşkil olunub.**



“Daxili xəstəliklər üzrə yeniliklər və innovativ terapiya” adlı ilk sessiyada çıxış edən Tədris Terapevtik Klinikanın direktoru, I Daxili xəstəliklər kafedrasının müdiri, professor Vəsatət Əzizov tədbirin mahiyyətindən söz açıb. O, Azərbaycan tibb ictimaiyyətində hər il ənənəvi olaraq elmi-tədqiqat fəaliyyətinin nəticələrinin təqdim olunduğunu və builki məruzələrin də aktual və maraqlı mövzuları əhatə etdiyini vurğulayıb.

Elmi Tədqiqatların İdarə Olunması Departamentinin müdiri, professor Eldar Qarayev isə elmi fəaliyyətin təşkili, tədqiqatların aktuallığı və nəticələrin praktik səhiyyəyə tətbiqinin mühüm əhəmiyyətindən danışıb. O, son illərdə universitetdə elmi fəaliyyət sahəsində mühüm islahatların həyata keçirildiyini, elmi məqalələrin nəşri, beynəlxalq jurnallarda dərc olunması və elmi bazalarda indeksləşmə istiqamətində ciddi addımların atıldığını diqqətə çatdırıb.

“Onkologiyada yeniliklər” adlı növbəti sessiya isə Tədris Onkoloji Klinikada keçirilib. Onkologiya kafedrasının dosenti Tamara Quliyeva tədbirin məqsədi və məramı barədə iştirakçılara məlumat verib.

Elmi işlər üzrə prorektor, professor Məlahət Sultan bildirib ki, hər il may ayında ənənəvi olaraq elmi konfranslar təşkil olunur. O qeyd edib ki, bu il konfrans üç kurs və iki panel sessiyası ilə öz işinə başlayıb və bu tədbir universitetin elm bayramı kimi xarakterizə olunur.

Mayın 8-də “Əczaçılıqda yeniliklər: molekulyar dizayn və klinik effektivlik”, “Qlobal sağlamlıq və infeksion risklər”, “Pediatriyada yeniliklər və sağlam gələcəyin perspektivləri”, “Cərrahi tibb: yeniliklər, texnologiya və təkmilləşdirilmiş praktika”, “Ağız sağlamlığında yüksək texnologiyalar və yeniliklər”, “Tibb bacılığında elmi tədqiqatlar və sübutlara əsaslanan praktika” mövzularında sessiyalar təşkil olunub.



Tədris Cərrahiyyə Klinikasının treninq mərkəzində baş tutan “Heyvan ürəyi üzərində ürək transplantasiyasının texniki aspektləri” kursunu professor Kamran Musayev, “Prostat vəzinin transuretral rezeksiya və təməl laparoskopiya” kursu professor Rauf Nağıyev, “Qalxanvari vəz düyünlərində mikrodalğa ablasiya” adlı kurs isə dr. Azər Hümmətov tərəfindən həyata keçirilib.

Tələbələrin praktik bacarıqlarının gücləndirilməsinə yönələn təlim və kurslar nəzəri biliklərin təcrübə ilə birləşdirilməsi, tələbə və gələcək həkimlərin peşəkar fəaliyyətə hazırlanması, eləcə də keyfiyyətli tibbi xidmət göstərilməsində səriştəliliyin artırılması kimi mühüm aspektləri birləşdirib.



Konfrans çərçivəsində Tələbə Paneli də təşkil olunub. Bu panel gənc tədqiqatçıların elmi potensialını nümayiş etdirmək üçün geniş bir platforma rolunu oynayıb. Panel öz işini dörd əsas sessiyada davam etdirib: “Fundamental elmlər və müasir terapiya”, “Müasir cərrahiyyə və klinik onkologiya”, “Dərmanın gücü və cəmiyyətin sağlamlığı”, “Müasir stomatologiya: rəqəmsal texnologiyalar və klinik yanaşmalar”.

Qeyd edək ki, paneldə ATU ilə yanaşı, ölkəmizin müxtəlif ali təhsil müəssisələrinin, o cümlədən Naxçıvan Dövlət Universitetinin, Dövlət İdarəçilik Akademiyasının tələbələri, eləcə də İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin nümayəndələri iştirak ediblər. Eyni zamanda, beynəlxalq əməkdaşlıq çərçivəsində Qazaxıstan, Qırğızıstan və Özbəkistandan gələn iştirakçılar öz elmi tədqiqatlarını təqdim ediblər.

**Qabil ABDULLAYEV**

**Aprelin 30-da Əczaçılıq fakültəsi Tələbə Elmi Cəmiyyətinin konfransı keçirilib. Dövlət Himni səsləndirildikdən və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Elmi işlər üzrə prorektor, professor Məlahət Sultan universitetin rektoru, professor Gəray Gəraybəylinin salamlarını toplantı iştirakçılarına çatdırıb.**

# TEC-in növbəti konfransı Əczaçılıq fakültəsində baş tutub



Universitetdə aprel və may aylarının elm bayramı kimi qeyd edildiyini, tələbələrin həm yerli, həm də beynəlxalq səviyyədə artan elmi uğurlarını xüsusi vurğulayan prorektor, Milli Qəhrəman Polad Həşimovun ailəsinin qonaq qismində iştirakı və tələbəmiz olan övladının bu tədbirdə məruzə ilə çıxış etməsini konfransın ən təsirli məqamı kimi dəyərləndirib. O, tələbələrin innovativ layihələrini və startap ideyalarını yüksək qiymətləndirərək, bu elmi toplantının həm də bir zəfər və qürur günü olduğunu qeyd edib.

Konfransın çox yüksək səviyyədə təşkil olunduğunu vurğulayan prorektor bildirib ki, tələbələrimiz artıq nəinki ölkə daxilində, həmçinin bir sıra yaxın-uzaq ölkələrdə öz elmi-tədqiqat işlərini təqdim edir və yüksək nailiyyətlər qazanırlar. Bu nailiyyətlər isə ilk növbədə universitet rəhbərliyinin tələbələrin elmi işlərə cəlb edilməsi prosesinə xüsusi diqqət yetirməsinin və onlara tədqiqat işlərini aparmaq üçün yaradılan şəraitin nəticəsidir.

Tərbiyə işləri üzrə prorektor, dosent Mahir Səfərov çıxışı zamanı öz tələbəlik illərini və tibb sahəsindəki peşə seçimini səmimiyyətlə xatırlayaraq, farmakologiya sahəsinə olan dərin marağından bəhs edib. Keçmişdəki apteklərin atmosferini və dərman hazırlama prosesinin incəliklərini təsvir etməklə, bu elmin həm tarixi köklərinə, həm də müasir tibbdəki əhəmiyyətinə xüsusi diqqət çəkib. Gənc nəslin bu sahədəki fəallığını təqdir edərək, aparılan tədqiqatların beynəlxalq səviyyədə tanınmasının vacibliyinə də toxunub.

Elmi Tədqiqatların İdarə Olunması Departamentinin müdiri, professor Eldar Qarayev əczaçılıq sahəsinin mahiyyəti və bu elmin təbabətdəki mühüm rolu haqqında danışıb. Qeyd edib ki, əczaçılıq sadəcə aptek fəaliyyəti ilə məhdudlaşmır, həm də dərman preparatlarının ixtirası və istehsalını əhatə edən geniş bir elm sahəsidir. Eyni zamanda bu sahənin tibb və kimya elmlərinin sintezi olduğunu, insan sağlamlığı üçün həlledici əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

Fakültənin dekanı, dosent Fərəh Mədətli bildirib ki, ATU-nun inkişaf strategiyasının əsas prioritetlərindən biri olan TEC-in nailiyyətləri həm də fakültənin uğurudur. Natiq tədbiri həm müəllimlər, həm də tələbələr üçün mühüm bir bayram və hesabat günü kimi səciyyələndirərək, gənclərin il boyu apardıqları tədqiqat işlərinin nəticələrini təqdim etmələrinin və elmi fəaliyyətlə məşğul olmalarının əhəmiyyətini vurğulayıb.

Fakültə üzrə TEC-in rəhbəri, baş müəllim Xuraman Mustafayeva bu ilki elmi konfransda tətbiq edilən mühüm yeniliklər və müxtəlif qurumlardan dəvət olunmuş münsiflər heyəti haqqında ətraflı məlumat verib. Bildirib ki, tədbirin əsas məqsədi fərqli sahə mütəxəssislərini bir araya gətirərək gələcəkdə icrası nəzərdə tutulan birgə layihələr üçün şəbəkələşmə imkanı yaratmaqdır.

Şəhid general, Milli Qəhrəman Polad Həşimovun ömür-gün yoldaşı Ofelya Salmanova Azərbaycan Tibb Universitetində təhsil alan qızı Aybənizin həmişə professor-müəllim heyəti haqqında böyük sevgi ilə danışdığını söyləyib. Şəhid ailələrinə göstərdikləri diqqət və qayğıya görə, eləcə də bu möhtəbər tədbirə dəvət üçün universitet rəhbərliyinə təşəkkürünü bildirib.

Rəsmi hissədən sonra söz tədqiqatçı tələbələrə verilib. “Elm. Tədqiqat. İnnovasiya” şüarı altında keçirilən konfransın sonunda qalib tələbələrə TEC-in xüsusi diplom və sertifikatları təqdim olunub.

# Tələbələr pulsuz göz əməliyyatı olunub



Tədris Cərrahiyyə Klinikasında ənənəvi humanitar aksiya çərçivəsində universitet tələbələri üçün pulsuz göz əməliyyatları icra olunub. Humanitar aksiya ATU-nun rektoru, professor Gəray Gəraybəyli və klinikanın Oftalmologiya şöbəsinin müdiri, dosent Qurban İsmayılovun təşəbbüsü ilə həyata keçirilib. Aksiya çərçivəsində görkəmli oftalmoloq, akademik Zərifə Əliyevanın doğum gününə həsr olunmuş tədbir çərçivəsində 7 tələbə, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının ildönümü münasibətilə isə daha 7 tələbə əməliyyat edilib.

# Hərbi həkimlik həm fədakarlıq, həm də dərin bilik tələb edir

## Hərbi tibb fakültəsində Tələbə Elmi Cəmiyyətinin konfransı keçirilib

Hərbi tibb fakültəsində Tələbə Elmi Cəmiyyətinin hərbi təbabətin aktual məsələlərinə və innovativ həllərə həsr olunmuş VIII konfransı keçirilib.

Konfransda çıxış edən fakültənin rəisi, tibb xidməti polkovniki Məhərət Rzayev gənc kadrların elmi hazırlığının ordumuzun gələcəyi üçün vacibliyini vurğulayıb.

Digər çıxışçılar - Müdafiə Nazirliyi Tibb İdarəsi rəisinin müavini, tibb xidməti polkovniki Roman Çobanov və Milli Müdafiə Universiteti Hərbi Elmi Tədqiqat İnstitutunun rektor müavini, professor, polkovnik Rəşad Tahirov da hərbi tibb sahəsindəki elmi tədqiqat işlərinin əhəmiyyətini və bu işlərin gənc tələbə və kursantların gələcək karyerasındakı rolundan bəhs edərək, ordumuzun gələcək nümayəndələrinin elmi fəaliyyətlərini yüksək qiymətləndiriblər.

Elmi Tədqiqatların İdarə Olunması Departamentinin şöbə müdiri, professor Fatimə Seyidbəyova və TEC-in elmi rəhbəri, dosent Nərgiz Məmmədova çıxışlarında elmi-tədqiqat işlərinin metodologiyası və beynəlxalq əməkdaşlıq perspektivlərinə toxunaraq, gənc tədqiqatçılara gələcək işlərində uğurlar arzulayıblar.

Tədbir zamanı Hərbi tibb fakültəsi TEC-in bir illik fəaliyyəti barədə hesabat dinlənilib. Milli təhlükəsizlik və hərbi elmlər üzrə fəlsəfə doktoru, tibb xidməti polkovnik-leytenantı Saleh Əhmədov ötən bir il ərzində görülən işləri, əldə olunan nailiyyətləri və gələcək hədəfləri konfrans iştirakçılarının diqqətinə çatdırıb.

Tədbirdə xüsusi vurğulanıb ki, hərbi həkimlik həm fədakarlıq, həm də dərin bilik tələb edən bir peşədir. Vətən müharibəsi zamanı "güllə yağışı" altında yaralıların həyatını xilas edərək qəhrəmanlıq dastanı yazan şəhid və qazi həkimlərimizin yolu bu gün gənc kursantlar tərəfindən həm elmdə, həm də xidmətdə qürurla davam etdirilir.

Konfransın yekununda təqdim olunan innovativ təkliflər və müalicə metodlarının hərbi tibb elminin inkişafına yeni töhfələr verəcəyinə əminlik ifadə olunub.



# Tələbələr klinik-praktik olimpiadada yarışıb

## “Çiyin-çiyinə tibb naminə” adlı universitetlərarası olimpiada Beynəlxalq Tibb Bacıları Gününə həsr olunub

**Azərbaycan Tibb Universiteti və İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının birgə təşkilatçılığı ilə Beynəlxalq Tibb Bacıları Gününə həsr olunmuş “Çiyin-çiyinə tibb naminə” adlı universitetlərarası klinik-praktik olimpiada keçirilib.**



Olimpiadanın təşkilatçıları sırasında Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının Tədris-Simulyasiya və Akkreditasiya Departamentinin rəhbəri Tamilla Məmmədova, Tədris-Simulyasiya və Akkreditasiya sahəsi üzrə baş mütəxəssis Zərnigar Hümbətova, Azərbaycan Tibb Universiteti tərəfindən isə İctimai səhiyyə fakültəsi, fakültənin dekanı, dosent Qalina Qəniyeva və İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının assistenti, t.ü.f.d. Şəhla Bağırova yer alıblar.

Gələcək həkim və tibb bacılarının klinik biliklərini, praktik bacarıqlarını və komanda ruhunu inkişaf etdirmək məqsədi daşıyan olimpiadada ATU, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı və Naxçıvan Dövlət Universitetinin tələbələri iştirak ediblər. Ümumilikdə 7 komanda - “PULSE BREAKERS”, “STARKS”, “NEXUSMED”, “CODE BLUE”, “MEDSTORM”, “VİRTUS” və “VİTALS” öz bilik və bacarıqlarını nümayiş etdirib.

Tədbirin açılış mərasimində Azərbaycan Tibb Universitetinin Tədris işləri üzrə prorektoru, professor Anar Ağayev çıxış edərək bildirib ki, belə bir olimpiadanın keçirilməsi təsadüfi deyil. O qeyd edib ki, tədbirin Beynəlxalq Tibb Bacıları Gününə təsadüf etməsi səhiyyə sistemində mühüm rol oynayan tibb bacılarının əməyinə verilən yüksək dəyərin göstəricisidir. Prorektor universitetdə tələbələrin peşəkar inkişafına daim xüsusi diqqət ayrıldığını vurğulayaraq, bu cür tədbirlərin gələcək tibb mütəxəssislərinin yetişməsində də mühüm rol oynadığını bildirib və iştirakçılara uğurlar arzulayıb.

Daha sonra Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının Tədris-tərbiyə işləri üzrə rektor müavini Nurana Quliyeva çıxış edib. O bildirib ki, müasir səhiyyə sistemində keyfiyyətli tibbi xidmətin əsas şərtlərindən biri həkim və tibb bacılarının komanda şəklində fəaliyyət göstərməsidir. N.Quliyeva tibb bacılarının səhiyyə sistemindəki mühüm rolunu vurğulayaraq, Beynəlxalq Tibb Bacıları Günü münasibətilə bütün tibb bacılarını təbrik edib və olimpiadanın iştirakçılar üçün dəyərli təcrübə olacağına inandığını qeyd edib.



Olimpiada üç mərhələdən ibarət olub. Birinci mərhələdə iştirakçılar onlayn test üsulu ilə qiymətləndirilib və yüksək nəticə göstərən tələbələrdən komandalar formalaşdırılıb.

İkinci mərhələ “Kapitanlar müsabiqəsi” adı altında keçirilib və ümumilikdə 100 bal üzərindən qiymətləndirilib. Mərhələ üç hissədən ibarət olub: “Zəka döyüşü” Kahoot mərhələsi (50 bal), “Tibbin sirli sualları” mərhələsi (30 bal) və “Vizit kart” təqdimatı (20 bal). Bu hissələrdə iştirakçıların sürətli düşünmə, operativ qərarvermə, tibbi məntiq, yaradıcılıq və təqdimat bacarıqları yoxlanılıb.

“Kapitanlar müsabiqəsi”nin münsiflər heyətində Seçenov Universiteti tərəfindən Zərnigar Hümbətova və müəllim Fidan Məhərrəmova, ATU tərəfindən isə II Uşaq xəstəlikləri kafedrasının dosenti Fəxriyyə Məmmədova və Ailə təbabəti kafedrasının dosenti Rəna Məmmədova yer alıblar. Mərhələnin aparıcısı isə Şəhla Bağırova olub.

Üçüncü mərhələ praktik hissədən - OSKİ tipli imtahandan ibarət olub. Bu mərhələdə iştirakçıların klinik təfəkkürü, praktik bacarıqları və qərarvermə qabiliyyətləri qiymətləndirilib.

Bütün mərhələlər yekunlaşdıqdan sonra qaliblər elan olunub. “VİTALS” komandası I yerə, “MEDSTORM” komandası II yerə, “VİRTUS” komandası isə III yerə layiq görülüb. Qalib komandalar diplom və pul mükafatları ilə təltif ediliblər. Belə ki, I yerin qalibi 3600 manat, II yerin qalibi 2400 manat, III yerin qalibi isə 1200 manat mükafat qazanıb.

“Çiyin-çiyinə tibb naminə” olimpiadası tələbələrin yalnız nəzəri biliklərini deyil, həm də praktik hazırlıqlarını, komanda şəklində işləmək bacarıqlarını və peşəkar yanaşmalarını nümayiş etdirmələri baxımından böyük əhəmiyyət daşıyıb.

# Türk dillərində tibbi terminologiyanın inkişafına töhfə verən lüğət



Tədris Cərrahiyyə Klinikasında “Türk dillərinin tibbi terminoloji lüğətləri” adlı ikicildlik nəşrin təqdimatı keçirilib.

Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov çıxışında tibbi terminologiyanın əhəmiyyətindən bəhs edərək bildirib ki, bu sahə ən qədim terminologiya sahələrindən biridir. Əsasən latın və yunan dillərinə söykənsə də, zamanla beynəlxalq elmi mühitdə formalaşaraq tibb elminin və praktik fəaliyyətin ayrılmaz hissəsinə çevrilib. O vurğulayıb ki, bu terminlər olmadan nə tibbi təcrübəni, nə də elmi nailiyyətləri təsəvvür etmək mümkündür.

Akademik qeyd edib ki, ayrı-ayrı terminlərin mahiyyətini anlamaq üçün bəzən uzunmüddətli araşdırmalar tələb olunur. Terminologiya sahəsində fərqli və bəzən ziddiyyətli yanaşmaların mövcudluğu isə bu sahənin mürəkkəbliyini göstərir. Bu səbəbdən terminlərin düzgün, dəqiq və vahid şəkildə işlədilməsi xüsusi əhəmiyyət daşıyır. Ə.Əmiraslanov lüğətin hazırlanmasını çətin və məsuliyyətli proses kimi dəyərləndirərək nəşri mühüm elmi hadisə adlandırıb.

Beynəlxalq Türk Akademiyasının prezidenti, akademik Şahin Mustafayev qeyd edib ki, ortaq terminoloji məkanın formalaşdırılması türk ölkələrinin intellektual inteqrasiyası üçün əsas istiqamətlərdən biridir. O bildirib ki, Akademiya bu istiqamətdə müxtəlif sahələr üzrə terminoloji lüğətlərin hazırlanmasını ardıcıl şəkildə həyata keçirir və təqdim olunan nəşr də bu fəaliyyətin davamıdır.

AMEA-nın müxbir üzvü, ATU-nun I Cərrahi xəstəliklər kafedrasının müdiri, professor Nuru Bayramov çıxışında lüğətinin əhəmiyyətindən geniş şəkildə bəhs edib. Bu lüğətin tibb sahəsində çalışan mütəxəssislər, tələbələr və gənc həkimlər üçün mühüm mənbə rolunu oynayacağını vurğulayıb.

Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının müdiri, professor Çingiz Rəhimov tibbi terminlərin düzgün və vahid formada istifadəsinin elmi ünsiyyət və peşəkar fəaliyyət baxımından vacibliyini önə çəkib. Həmçinin lüğətin tibbi biliklərin daha dəqiq mənimsənilməsinə və praktik tətbiqinə dəstək verəcəyini qeyd edib.

Tədbirdə Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli, Terminologiya Komissiyası sədrinin müavini Sayalı Sadıqova, Türk Mədəniyyəti və İrsi Fondunun aparat rəhbəri Fəxri Hacıyev, Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini Günay Əfəndiyeva, eləcə də Qazaxıstan, Qırğızıstan və Özbəkistanın Azərbaycandakı səfirləri və digər natiqlər çıxış ediblər.

Bildirilib ki, bu nəşr türk dünyasında tibbi terminologiyanın sistemləşdirilməsi baxımından tarixi və mühüm elmi hadisədir. Lüğət müxtəlif türk dillərində yazılmış tibbi mətnlərin daha asan anlaşılmasına, eləcə də süni intellekt əsaslı tərcümə sistemlərinin inkişafına töhfə verəcək.

Qeyd edilib ki, iki cilddən ibarət nəşrdə 8000-ə yaxın tibbi termin 11 dildə təqdim olunub. Terminlər əvvəlcə ingilis və rus, daha sonra isə Azərbaycan, başqırd, qazax, qaraqalpak, qırğız, özbək, tatar, türk və türkmən dillərində verilib.

Kitab Türk Akademiyasının təşkilatçılığı, Azərbaycan Terminologiya Komissiyasının dəstəyi və 31 müəllifin iştirakı ilə hazırlanıb. Nəşrin əsasını azərbaycanlı alimlər – Nuru Bayramov, Əhliman Əmiraslanov və Çingiz Rəhimov tərəfindən tərtib edilmiş terminlər təşkil edir.

# Ailə həkiminin sosial rolu

**15 may dünyada Beynəlxalq Ailə Günü kimi qeyd olunur. BMT-nin Baş Assambleyasının qətnaməsinə əsasən, 1994-cü ildən etibarən hər il qeyd edilən bu aksiyanın məqsədi ailə dəyərlərinə hörmət, ailə problemlərinə diqqət çəkmək və möhkəm ailə təməllərini təşviq etməkdir.**

Ailə həkimi cəmiyyətlə birbaşa təmasda olan və fərdin həyatının müxtəlif aspektlərinə təsir edən mütəxəssisdir. Onun fəaliyyəti yalnız klinik çərçivə ilə məhdudlaşmır, eyni zamanda sosial xarakter daşıyır. Əvvəla, ailə həkimi icmanın bir üzvü kimi çıxış edir və xidmət göstərdiyi əhalinin sosial xüsusiyyətlərini yaxşı bilməlidir. Bu, onun xəstələrin həyat tərzini, qidalanma vərdişlərini, stress faktorlarını və digər risk amillərini daha düzgün qiymətləndirməsinə şərait yaradır. Məsələn, aztəminatlı ailələrdə yaşayan şəxslərdə sağlam qidalanma imkanlarının məhdud olması və ya işsizlik səbəbindən yaranan psixoloji gərginlik xəstəliklərin yaranmasına və ya ağırlaşmasına səbəb ola bilər. Digər tərəfdən, ailə həkimi tez-tez psixoloji dəstək verən şəxs rolunu da oynayır. Xəstələr bəzən öz problemlərini ilk növbədə ailə həkimi ilə bölüşürlər. Bu isə həkimdən yüksək səviyyədə empati və dinləmə bacarığı tələb edir. Bundan əlavə, ailə həkimi ailədaxili münasibətlərin tənzimlənməsində də dolayı rol oynaya bilər. Xüsusilə xroniki xəstəliklər zamanı ailə üzvlərinin xəstəyə münasibəti müalicənin nəticələrinə ciddi təsir göstərir.

Həkim və xəstə arasında qurulan münasibətlərin keyfiyyəti müalicə prosesinin uğuruna birbaşa təsir edir. Sosiallaşma bu münasibətlərin əsasını təşkil edir. Effektiv ünsiyyət həkimə xəstənin şikayətlərini daha dəqiq anlamağa kömək edir. Xəstə özünü rahat hiss etdikdə, simptomlarını daha açıq şəkildə ifadə edir və bu da düzgün diaqnoz qoyulmasını asanlaşdırır. Əksinə, ünsiyyətin zəif olduğu hallarda xəstə məlumatı gizlədə və ya natamam təqdim edə bilər. Etimad faktoru da sosiallaşmanın mühüm komponentlərindəndir. Xəstə həkiminə güvəndikdə, onun təyin etdiyi müalicəyə daha ciddi yanaşır. Bu isə müalicəyə riayət səviyyəsini artırır və nəticələrin yaxşılaşmasına səbəb olur.

Xəstələrin sağlamlıqla bağlı davranışları böyük ölçüdə onların sosial mühitindən asılıdır. Ailə həkimi bu davranışların formalaşmasında mühüm rol oynayır. Məsələn, düzgün qidalanma, fiziki aktivlik və zərərli vərdişlərdən uzaq durmaq kimi faktorlar həkimin maarifləndirici fəaliyyəti nəticəsində formalaşa bilər. Sosiallaşma burada həkimin təsir imkanlarını genişləndirir. O, yalnız fərdi deyil, bütövlükdə ailəni və hətta icmanı sağlam həyat tərzinə yönləndirə bilər.

Profilaktik təbabət ailə həkiminin əsas fəaliyyət istiqamətlərindən biridir və burada sosiallaşmanın rolu xüsusilə önəmlidir. Xəstəliklərin qarşısının alınması yalnız tibbi müdaxilələrlə deyil, həm də insanların davranışlarının dəyişdirilməsi ilə mümkündür. Ailə həkimi peyvəndləmə, skrininq proqramları və sağlam həyat tərzinin təşviqi kimi sahələrdə aktiv iştirak edir. Bu fəaliyyətlərin effektiv olması üçün həkimin insanlarla düzgün münasibət qurması və onları inandıra bilməsi vacibdir. Xüsusilə risk qrupları ilə işləyərkən sosiallaşma daha da ön plana çıxır. Yaşlı insanlar, xroniki xəstələr və sosial baxımdan həssas qruplar xüsusi yanaşma tələb edir.

Sosiallaşma yalnız sosial deyil, həm də psixoloji prosesdir. Ailə həkimi xəstənin emosional vəziyyətini dərk etməli və ona uyğun davranmalıdır. Empati bu baxımdan əsas bacarıqlardan biridir. Empatik yanaşma xəstədə güvən hissi yaradır və onun müalicəyə münasibətini müsbət istiqamətdə dəyişir. Xüsusilə xroniki xəstəliklər zamanı xəstələrin psixoloji vəziyyəti çox həssas olur və bu hallarda həkimin dəstəyi böyük əhəmiyyət daşıyır.



**İbrahim İSAYEV,**
Ailə təbabəti kafedrasının müdiri, professor
**Günəş BABAYEVA,**
kafedranın assistenti



## Ümumdünya Əl Gigiyenası Günü qeyd olunub

İctimai səhiyyə fakültəsinin Epidemiologiya və biostatistika kafedrasında 5 May - Ümumdünya Əl Gigiyenası Gününə həsr olunmuş maarifləndirici tədbir keçirilib. Tədbir əl gigiyenasının vacibliyini bir daha diqqətə çatdırmaq və düzgün əl təmizliyi vərdişlərini təşviq etmək məqsədi daşıyıb. Xatırladaq ki, 2008-ci ildən etibarən hər il "Dünya təmiz əllər günü" ("Global Handwashing Day") qeyd edilir.

Tədbirdə çıxış edən kafedra müdiri, Əməkdar elmi xadimi, professor İbadulla Ağayev əl gigiyenasının infeksion xəstəliklərin profilaktikasında mühüm rolunu vurğulayıb.

Təqdimatla çıxış edən kafedranın assistenti, tibb üzrə fəlsəfə doktoru Azər Rəşidov əl gigiyenasının müasir tələbləri, səhiyyə müəssisələrində tətbiqi və əhəmiyyəti barədə ətraflı məlumat verib. Qeyd olunub ki, tibbi personal əl gigiyenası üzrə beynəlxalq protokollara (məsələn, WHO-nun "Beş Əsas An" konsepsiyası) uyğun təlimatlandırılmalı və nəzarət altında saxlanmalıdır. Həmçinin əl gigiyenasına riayət olunmaması bir sıra yoluxucu xəstəliklərin – COVID-19, qrip, rotavirus, enterovirus və bağırsaq infeksiyalarının yayılmasına səbəb ola bilər. Vurğulanıb ki, əl gigiyenası yalnız fərdi qorunma tədbiri deyil, həm də ictimai sağlamlığın qorunması baxımından strateji əhəmiyyətə malikdir. Səhiyyə işçiləri və cəmiyyətin bütün üzvləri gigiyenik davranışları gündəlik həyatın ayrılmaz tərkib hissəsinə çevirməlidir.

Daha sonra tədbir çərçivəsində dəvət olunmuş "Facet" MM şirkətinin nümayəndələri tərəfindən əl gigiyenasının düzgün aparılması üsulları praktik nümayiş etdirilib, həmçinin bu sahədə istifadə olunan vasitə və məhsullar iştirakçılara təqdim olunub.

# Yanğın təhlükəsizliyi ilə bağlı müşavirə keçirilib

**Azərbaycan Tibb Universitetinin təşkilatçılığı və Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğın Nəzarəti Xidmətinin təşəbbüsü ilə universitetdə yanğın təhlükəsizliyi ilə bağlı müşavirə keçirilib.**



Müşavirədə çıxış edən İnzibati-təsərrüfat işləri üzrə prorektor, i.ü.f.d. İlqar Mehrabov tədbirin əhəmiyyəti haqda ətraflı məlumat verib.

Dövlət Xidmətinin rəis müavini, daxili xidmət polkovniki Cəmil Xudiyev də tədbirin mahiyyətindən danışıb və qeyd edib ki, məqsəd tələbə, müəllim və işçi heyətə yanğın təhlükəsizliyi qaydalarının öyrədilməsi, təxliyə tədbirləri, yanğın zamanı davranış qaydaları vərdişlərinin aşılanmasıdır. Rəis müavini səhiyyə obyektlərində yanğına qarşı qabaqlayıcı tədbirlərin səmərəliliyinin artılırması məqsədilə aidiyyatı qurumların koordinasiyalı fəaliyyətinin vacibliyini, eyni zamanda bu cür tədbirlərin keçirilməsinin əhəmiyyətini vurğulayıb.

ATU-nun Mülki Müdafiə Qərargahının rəisi Ramiz Əliyev universitetdə mülki müdafiə hazırlığının vəziyyəti və qarşıda duran ümumi vəzifələrdən söz açıb.

Tədbirdə müxtəlif təyinatlı binalarda, o cümlədən 09.01.2024-cü ildə Respublika Perinatal Mərkəzində baş vermiş yanğınla bağlı məlumat verilərək təhlil aparılıb və video-rolik göstərilib.

Tədbirin praktik hissəsində universitetin həyətində ilkin yanğınsöndürmə vasitələrindən istifadə qaydaları əyani şəkildə nümayiş etdirilib, iştirakçıların sualları cavablandırılıb. Tədbirdən sonra əldə edilmiş nəticələr müzakirə olunaraq müvafiq tapşırıqlar verilib və ATU-nun yanğın təhlükəsizliyinə cavabdeh olan əməkdaşlarına maarifləndirici materiallar paylanılıb.

# Açıq dişləm anomaliyası müzakirəyə çıxarılıb

**Bakıda ortodontiya sahəsinə həsr olunmuş "Bakı Ortodontiya Günləri-1" adlı elmi-praktik seminar təşkil olunub. Seminarın əsas məqsədi açıq dişləm anomaliyası ilə bağlı müasir ortodontik yanaşmaları təqdim etmək, yeni texnologiyalar və klinik protokollar barədə mütəxəssisləri məlumatlandırmaq, eyni zamanda bu sahədə praktiki bilik və bacarıqların artırılmasına töhfə vermək olub.**

Seminarın mühazirəçiləri qismində Azərbaycan Tibb Universitetinin Ortodontiya kafedrasının dosenti, tibb elmləri doktoru Zaur Novruzov və tibb üzrə fəlsəfə doktoru Süleyman Xəlil çıxış ediblər. Tədbir ortodontların böyük marağına səbəb olub, müxtəlif klinika və tibb müəssisələrindən çoxsaylı iştirakçıları bir araya gətirib.

Tədbir çərçivəsində açıq dişləm anomaliyasının diaqnostikası, ortodontik müalicənin planlaşdırılması, breket və elayner sistemlərinin tətbiqi, müasir biomexanika prinsipləri, eləcə də müalicə zamanı rast gəlinən mürəkkəb klinik halların idarə olunması kimi mövzular geniş müzakirə edilib. Seminar müddətində iştirakçılar real klinik nümunələr üzərində fikir mübadiləsi aparmaq və müasir metodların tətbiq mexanizmlərini yaxından öyrənmək imkanı əldə ediblər.



"Bakı Ortodontiya Günləri-1" tədbiri peşəkar inkişaf və təcrübə mübadiləsi baxımından əhəmiyyətli platforma kimi yüksək qiymətləndirilib. İştirakçılar seminarın yüksək təşkilatçılıq səviyyəsini və təqdim olunan məlumatların praktik faydasını xüsusi vurğulayaraq, gələcəkdə bu formatda daha genişmiqyaslı elmi tədbirlərin keçirilməsini arzuladıqlarını bildiriblər

# Əməkdaşlarımızın uğurları



Əczaçılıq toksikologiyası və kimya kafedrasının müdiri, professor E.Qarayev, assistent Ş.Quliyeva və doktorant Q.Məmmədbəyli Taylandın Bankok şəhərində Khon Kaen Universiteti tərəfindən təşkil olunan "Bitki və ənənəvi təbabət" adlı V beynəlxalq konfransa qatılıblar.

Tədbir çərçivəsində dünyanın 20-dən çox ölkəsindən tanınmış alimlər öz məruzələrini təqdim ediblər. Eyni zamanda, professor E.Qarayev Taylandın Burapha Universitetində mühazirə oxuyub. Görüşlərdə Burapha Universiteti və ATU arasında əməkdaşlıq perspektivləri müzakirə olunub.

* * *



Tibb və sağlamlıq elmləri təhsili kafedrasının müdiri, dosent Samir Cavadlı "Orhun" mübadilə proqramı çərçivəsində Ege Universitetinin Tibb fakültəsində akademik fəaliyyət göstərib.

Səfər müddətində S.Cavadlı tərəfindən "Klinik bacarıq" fənni üzrə müasir pedaqoji yanaşmalara əsaslanan dərslər keçirilib. Eyni zamanda, əməkdaşımız qiymətləndirmə və dəyərləndirmə komissiyalarının iclası, Rezidentlərin Simpoziumu, "Ölçmə-dəyərləndirmə üsulları" adlı təlimdə və digər tədbirlərdə iştirak edib.

Səfər zamanı S.Cavadlı, həmçinin "Azərbaycanda tibb təhsili sistemi: mövcud durum və inkişaf strategiyaları" mövzusunda məruzə ilə çıxış edib.

* * *

Qulaq, burun və boğaz xəstəlikləri kafedrasının müdiri, Tədris Cərrahiyyə Klinikasının Otolarinqologiya şöbəsinin cərrahı, professor Vəfa Pənahian və dosent Sara Ağalar VII Otoloji və Audiologiya Konqresində iştirak ediblər.

Konqres çərçivəsində professor V.Pənahian "Hərtərəfli eşitmə itkisi" mövzusunda keçirilən sessiyanın moderatoru olub. S.Ağalar isə "A-dan Z-yə mastoidektomiya" panelində "Mastoidektomiya ağırlaşmaları və atipik hallar" mövzusunda məruzə ilə çıxış edib.

Konqres İstanbul Yeni Yüzyıl Universitetinin Tibb fakültəsi və Səhiyyə Xidmətləri Peşə Məktəbinin Audiometriya Proqramı tərəfindən təşkil olunub.

Konqresdə eşitmə və balans elmləri sahəsində son yeniliklər müzakirə olunub, diaqnostika, reabilitasiya, klinik yanaşmalar və innovativ tətbiqlərlə bağlı elmi sessiyalar təşkil edilib. Həmçinin virtual reallıq tətbiqləri, eşitmə və musiqi qavrayışı testləri, fHIT tətbiqləri və səs terapiyası üzrə praktiki kurslar iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.

* * *

Nevrologiya kafedrasının müdiri, professor Aytən Məmmədbəyli və həmin kafedranın dosenti Şəhla Məlikovanın məqaləsi növbəti dəfə yüksək impakt faktorlu, PubMed, Web of Science, Scopus, Embase və digər beynəlxalq elmi məlumat bazalarında indekslənən Q2 kateqoriyalı jurnalda dərc edilib.

Bu dəfə əməkdaşların elmi nəticələri nevrologiya sahəsində dünyanın ən nüfuzlu elmi nəşrlərindən biri olan və epileptologiya üzrə ilk 4 əsas jurnaldan biri hesab edilən "Epilepsy Research" jurnalında dərc olunub.

Məqalədə müəlliflər epilepsiyalı hamilə qadınlarda doğuş və neonatal nəticələrə təsir edən amilləri araşdırıb, xüsusilə elmi ədəbiyyatda indiyədək kifayət qədər öyrənilməmiş doğuş sayının (paritenin) hamiləliyin gedişinə, tutmaların nəzarətinə və perinatal nəticələrə təsirini əsaslı şəkildə təhlil edərək, nəticələri müqayisəli şəkildə qiymətləndiriblər.

* * *

Özbəkistanın Xivə şəhərində Urgenc Dövlət Tibb Universitetinin təşkilatçılığı ilə "İmmunologiya və klinik genetika. Orfan xəstəlikləri" adlı beynəlxalq elmi- praktik konfrans keçirilib.

10 ölkədən 500-dən artıq nümayəndənin iştirak etdiyi konfrans tibbin mühüm sahələri olan klinik immunologiya və genetikanın aktual problemlərinə həsr olunub. Konfransın əsas mövzusu bir çox panellərdə, eləcə də müxtəlif sessiyalarda müzakirəyə çıxarılıb. Konfransda xarici mütəxəssislərlə yanaşı, Özbəkistanın müxtəlif bölgələrindən immunoloqlar, immunologiya ilə maraqlanan pediatriya və daxili xəstəliklər mütəxəssisləri, revmatoloqlar, irsi-genetik xəstəliklər üzrə mütəxəssislər iştirak ediblər.



Universitetimizi bu konfransda I Uşaq xəstəlikləri kafedrasının professoru Gülnarə Nəsrullayeva və II Uşaq xəstəlikləri kafedrasının dosenti Məleykə Kərimova təmsil ediblər. Professor G.Nəsrullayeva uşaqlarda anadangəlmə immundefisitlər, dosent M.Kərimova isə nadir genetik xəstəliklər haqda çıxış ediblər. Hər iki əməkdaşımıza təşəkkürnamə verilib.

* * *

Ailə təbabəti kafedrasının dosenti Rəhimə Qabulova Sloveniyanın Lyublyana şəhərində keçirilən Avropa Kardiologiya Cəmiyyətinin Preventiv Kardiologiya (ESC EAPC) 2026 konqresində iştirak edib. O, 23-25 aprel tarixlərində baş tutmuş tədbirə moderator və məruzəçi qismində dəvət olunub. Konqresdə ilk dəfə və yeganə olaraq, 2 nəfər IV kurs tələbəmiz (Hazem AlHaj Ali, Abdul Malek Kteil) də poster məruzəsi ilə iştirak ediblər.

83 ölkədən ümumilikdə 1466 iştirakçının yer aldığı konqresdə 395 elmi tədqiqat və klinik hallar təqdim edilib.

Konqres çərçivəsində müasir preventiv kardiologiya sahəsində bilik mübadiləsi aparılıb, aktual yanaşmalar müzakirə olunub və yeni konsepsiyalar formalaşdırılıb.

* * *



Tibb və sağlamlıq elmləri təhsil kafedrasının baş müəllimi, II Müalicə-profilaktika fakültəsinin dekan müavini Bənövşə Hüseynova "Orhun" mübadilə proqramı çərçivəsində Niğde Ömer Halisdemir Universitetində akademik fəaliyyət göstərib.

"Zübeyde Hanım Sağlık bilimləri" fakültəsi, "Niğde Eğitim və araştırma" xəstəxanasında mühazirə və təcrübə dərsləri keçən əməkdaşımız, həmçinin simulyasiya mərkəzi ilə tanış olub, fakültə dekanı, dekan müavinləri ilə görüşərək tədris proqramlarının müqayisə və müzakirəsində iştirak edib. B.Hüseynova səfər çərçivəsində bir sıra tədbirlərə də qatılıb.

Səfərin sonunda adıçəkilən universitetin rektoru, professor Hasan Uslu ilə keçirilən görüşdə əməkdaşımıza sertifikat təqdim edilib.

# Azərbaycan əhalisinin 8-10 faizi talassemiya daşıyıcısıdır

**Hər il 8 may tarixi dünyada Talassemiya Günü kimi qeyd olunur. Bu günün əsas məqsədi irsi qan xəstəliklərindən biri olan talassemiyaya diqqət çəkmək, cəmiyyətdə maarifləndirməni gücləndirmək və profilaktik tədbirlərin əhəmiyyətini ön plana çıxarmaqdır.**

xüsusilə üz və kəllə nahiyəsində dəyişikliklər meydana çıxa bilər. Talassemiya mayorlu xəstələr həyatlarını davam etdirmək üçün mütəmadi qan köçürülməsinə və kompleks tibbi nəzarətə ehtiyac duyurlar. Bu xəstəliyin tam sağalması üçün HLA uyğun donordan sümük iliyi transplantasiyası uy-

ölkələr sırasına daxildir. Bu fakt problemin yalnız tibbi deyil, eyni zamanda sosial və demoqrafik aspektdən də aktuallığını artırır. Məhz bu səbəbdən talassemiyanın endemik xarakter daşıdığı ərazilərdə profilaktik tədbirlərin rolu xüsusilə böyükdür. Azərbaycanda talassemiyaya qarşı dövlət səviy-

Bunun üçün ilk növbədə “talassemiya nədir” – sualına cavab axtarmaq, onun diaqnostikası, növləri və müalicə üsulları haqqında müəyyən bilgiyə malik olmaq zərurəti yaranır. Bu barədə fikirlərini “Təbib” qəzetinin əməkdaşı ilə bölüşən ATU-nun Tədris Terapevtik Klinikasının həkim-hematoloqu Şəhla Şabanova bildirib ki, talassemiya autosom ressesiv keçid göstərən irsi genetik qanazlığıdır. Talassemiya zamanı eritrosit, yəni qırmızı qan hüceyrələrində olan hemoqlobinin alfa və ya beta zəncirinin yanlış istehsal edilməsi izlənilir.

Talassemiya xəstəliyinin iki - alfa talassemiya və beta talassemiya növünün olduğunu, ölkəmizdə ən çox beta talassemiya növünə rast gəlindiyini deyən müsahibimizin sözlərinə görə, hemoqlobinin tərkib hissəsi olan beta-qlobin zəncirinin sintezində qismən və ya tam pozulma müşahidə olunur, bu pozulmalara əsasən xəstəliyin şiddəti təyin edilir.

Beta talassemiyanın 3 forması - beta talassemiya minor (daşıyıcı forma), beta talassemiya intermedia (aralıq forma) və beta talassemiya mayor (xəstə forma) haqqında da məlumat verən həkim qeyd edib ki, sonuncu hal xəstəliyin ən ağır klinik forması olub, adətən erkən uşaqlıq dövründə özünü göstərir: “Bu zaman uşaqlarda dərin anemiya, solğunluq, halsızlıq və inkişafdan qalma kimi əlamətlər müşahidə olunur. Xəstəliyin gedişində qaraciyər və dalağın böyüməsi, sümük deformasiyaları,



ğun müalicə yoludur”.

Bu formalardan hər hansı birinin cinsdən asılı olmadan sağlam fərdlə nikahının mümkünlüyünü vurğulayan həkim, bu kombinasiyalardan xəstə genin müxtəlif paylanmasından asılı olaraq sağlam, xəstə və daşıyıcı övladların doğula biləcəyini söyləyib: “Belə ki, cütlükdən biri sağlam, digəri daşıyıcıdırsa, 50% ehtimalla sağlam və ya daşıyıcı övlad dünyaya gələcək. Əgər hər iki fərd daşıyıcıdırsa, 1 2 nisbətində, yəni 25% faiz xəstə, 50% daşıyıcı, 25% ehtimalla sağlam övlad dünyaya gəlir. Digər halda, sağlam fərdlə talassemiya xəstəsinin nikahından 100% daşıyıcı övlad doğulur.

Talassemiya qlobal miqyasda geniş yayılmış irsi qan xəstəliklərindən biri olmaqla yanaşı, bəzi coğrafi ərazilərdə daha yüksək rastgəlmə tezliyi ilə seçilir. Təəssüflə qeyd etməliyəm ki, bu baxımdan Azərbaycan da talassemiyanın nisbətən geniş yayıldığı, yəni endemik zona hesab olunan

yəsində sistemli mübarizə xüsusilə son 15-20 ildə gücləndirilib və bu sahədə konkret proqramlar və hüquqi mexanizmlər formalaşdırılıb”.

Həmsöhbətimiz onu da bildirib ki, Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq edilmiş “Talassemiya ilə mübarizə üzrə Dövlət Proqramı (2015-2020)” ən mühüm mərhələlərdən biri olub. Bu proqram çərçivəsində xəstəliyin profilaktikası, erkən diaqnostika, müalicə və qeydiyyat sisteminin təkmilləşdirilməsi əsas prioritetlər kimi müəyyən edilib: “2015-ci ildən etibarən nikahdan əvvəl tibbi müayinə sisteminin tətbiqi çərçivəsində cütlüklər talassemiya daşıyıcılığına görə icbari şəkildə yoxlanılır ki, bu da xəstəliyin profilaktikasında mühüm rol oynamaqdadır. Bundan başqa, son illərdə genetik skrininq və prenatal diaqnostika genişləndirilir, beynəlxalq əməkdaşlıq gücləndirilərək, maarifləndirmə kampaniyaları və donor hərəkatı inkişaf etdirilir”.

Talassemiyaya qarşı görülən tədbirlər və dövlət proqramlarının əhəmiyyətindən də söz açan hematoloq, bu kompleks yanaşma nəticəsində xəstəliyin erkən aşkarlanmasının artdığını, ağır halların sayında nisbi azalma meylinin formalaşdığını diqqətə çatdırıb. Bununla belə, ölkə əhalisinin təxminən 8-10 faizinin daşıyıcı olması talassemiyanın hələ də ciddi ictimai səhiyyə problemi olaraq qaldığını göstərir.

# Qrip kimi başlayıb ağciyərlərə enən təhlükə: Respirator Sinsitial Virus

**Son dövrlərdə qripəbənzər simptomlarla müşayiət olunan respirator infeksiyaların artması fonunda Respirator Sinsitial Virus infeksiyası (RSV) yenidən klinik və ictimai sağlamlıq baxımından aktual mövzuya çevrilib.**



Mütəxəssislərin müşahidələrinə əsasən, RSV çox vaxt ilkin mərhələdə qeyri-spesifik simptomlarla - yəni yuxarı tənəffüs yollarının yüngül zədələnməsi ilə başladığından, xəstələr tərəfindən əhəmiyyətli hesab edilmir. Bu isə gecikmiş diaqnostika və nəticə etibarilə ağırlaşmaların artmasına səbəb ola bilər. RSV infeksiyası, əsasən burun axıntısı, öskürək, halsızlıq və bədən hərarətinin yüksəlməsi ilə özünü göstərir. Lakin xəstəlik irəlilədikcə aşağı tənəffüs yollarına yayılaraq bronxiolit və pnevmoniya kimi ağır fəsadlara səbəb ola bilər. Xüsusilə körpələrdə nəfəs darlığı, sürətli tənəffüs və qidalanma çətinliyi kimi əlamətlər müşahidə oluna bilər.

Adətən bir çox insan RSV-yə yoluxduğunu fərq etmir. Bu isə erkən tibbi müdaxilənin gecikməsinə səbəb olur. Nəticədə xəstəlik daha ağır klinik gediş alaraq, xüsusilə 0-2 yaş arası uşaqlar və yaşlı insanlar üçün ciddi təhlükəyə çevrilir. Virus əsasən damcı yolu ilə – öskürək, asqıraq və yaxın təmas nəticəsində yayılır. Eyni zamanda, virusun müxtəlif səthlərdə uzun müddət aktiv qala bilməsi yoluxma riskini artırır. Yoluxmuş şəxslərdə əlamətlər adətən 4-6 gün ərzində meydana çıxır, yoluxduruculuq isə orta hesabla 10-11 gün davam edir. Risk qrupuna vaxtından əvvəl doğulan (prematür) körpələr, immun sistemi zəif olan şəxslər, ürək xəstəliyi olan uşaqlar, eləcə də orqan transplantasiyası keçirmiş pasiyentlər daxildir. Bu kateqoriyaya aid olan şəxslərdə RSV infeksiyası daha ağır və uzunmüddətli keçə bilər.

RSV qrip və digər respirator infeksiyalarla tez-tez qarışdırıldığı üçün, əlamətlər müşahidə edildiyi anda vaxt itirmədən həkimə müraciət olunmalıdır. Erkən diaqnoz və düzgün müalicə ağırlaşmaların qarşısını almaqda mühüm rol oynayır.

**Vüsal KƏRİMOV,**
Tibb və sağlamlıq elmləri təhsili kafedrasının assistenti

# Türkiyə universitetinin əməkdaşı ATU-da təcrübə keçib

**Türkiyənin Tokat Qaziosmanpaşa Universitetinin (TOGÜ) Korporativ kommunikasiyalar üzrə koordinasiya ofisinin əməkdaşı dr. Latif Bilgiler ATU-da təcrübə keçib.**



ATU və TOGÜ arasında Erasmus+ proqramı çərçivəsində reallaşan təcrübə mübadiləsi Universitetin İctimaiyyətlə əlaqələr şöbəsində həyata keçirilib. Səfər çərçivəsində İctimaiyyətlə əlaqələr şöbəsinin işi və fəaliyyəti ilə yaxından tanış olan L.Bilgiler universitetdə təşkil olunmuş bir çox tədbir, görüş və konfranslarda, o cümlədən “Sağlamlıq və Texnologiyanın Zirvəsi” adlı beynəlxalq elmi-praktik konfransda, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş tədbirdə iştirak edib.

Eləcə də L.Bilgiler universitetin İnsan anatomiyası kafedrasının anatomik tədris muzeyi ilə yaxından tanış olub. Kafedranın müdiri, tibb elmləri doktoru, professor Nəriman Mövsümov qonağa muzeyin nadir, zəngin eksponatları və tarixi haqda geniş və əhatəli məlumat verib.

# Onkoloji Klinikada rezidentlər üçün seminar keçirilib



Rezidentura və magistratura şöbəsi və Tədris Onkoloji Klinikanın birgə təşkilatçılığı ilə rezidentlər üçün "Uşaqlıq boynunun xərçəngönü və xərçəng xəstəliklərinin erkən diaqnostikası, müasir müalicə üsulları və profilaktikası" və "Yumurtalıq xərçəngi - müasir yanaşma" mövzularına həsr olunmuş seminar keçirilib.

Klinikanın baş həkimi, dosent Tamara Quliyeva və Rezidentura və magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilov qadın cinsiyyət sistemi orqanlarının xərçəngönü və xərçəng xəstəliklərinin erkən diaqnostikası və profilaktikasının aktual məsələ olduğunu diqqətə çatdırıblar.

Onkologiya kafedrasının dosenti, onkoginekoloq Samirə Səfərova uşaqlıq boynunun xərçəngönü və xərçəng xəstəliklərinin erkən diaqnostikasının əhəmiyyətini vurğulayıb. O, xəstəliyin risk faktorları, skrininq üsulları, HPV və PAP Smer müayinələrinin aparılması ilə əlaqəli və müasir müalicə protokolları barədə danışıb.

Kafedranın doktorantı, baş laborant Leyla Əliyeva yumurtalıq xərçənginə müasir yanaşmalar mövzusunda təqdimatla çıxış edib. O, xəstəliyin epidemiologiyası, histoloji təsnifatı, klinik mərhələləri və erkən diaqnostikanın çətinlikləri haqqında ətraflı məlumat verib.

Qeyd edək ki, seminarda müxtəlif ixtisaslar üzrə rezidentlər və Onkoloji Klinikanın heyəti iştirak edib.

# Növbəti seminar kardioloji mövzuya həsr olunub



Rezidentura və magistratura şöbəsi ilə Tədris Terapevtik Klinikanın birgə təşkilatçılığı ilə “Statinlərin müasir kardiologiyada rolu, LDL-xolesterinin aterosklerozda əhəmiyyəti və ürək-damar riskinin azaldılmasında yeri”, həmçinin “Statinlərin digər orqan və sistemlərə təsirləri, yan təsirləri və alternativ yanaşmalar” mövzularında elmi seminar təşkil olunub.

Seminarın moderator və təşkilatçıları professor Sona Qəhrəmanova, klinikanın baş həkimi Fəridə Hacıyeva, Rezidentura və magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilov olub. Məruzəçi qismində isə klinikanın IV kurs kardiologiya rezidenti Arifşah Quliyev çıxış edib.

A.Quliyev statinlərin aterosklerozun qarşısının alınması və ürək-damar riskinin azaldılmasında mühüm rolundan bəhs edib. O, LDL-xolesterinin damar divarında yaratdığı zədələyici təsirlər, statinlərin lipidsalıcı və pleiotrop xüsusiyyətləri, həmçinin infarkt, insult və kardiovaskulyar mortalitenin azalmasındakı əhəmiyyəti barədə məlumat verib. Bununla yanaşı, statinlərin mümkün yan təsirləri, digər orqan və sistemlərə təsirləri, eləcə də düzgün qidalanma, fiziki aktivlik və bitki mənşəli vasitələr kimi alternativ yanaşmalar haqqında təqdimatla çıxış edib.



# Marafonda fərqlənən tələbələrə medallar təqdim olunub

**Xəbər verdiyimiz kimi, Heydər Əliyev Fondunun təşəbbüsü ilə təşkil edilən "Bakı Marafonu 2026"-da Azərbaycan Tibb Universitetinin tələbələri yüksək nəticə göstəriblər.**

Universitetimizin "Təbib" Tədris İdman Mərkəzində medala layiq görülən tələbələrin və əməkdaşların mükafatlandırılması mərasimi keçirilib.

Tədbiri Mərkəzin müdiri, beynəlxalq dərəcəli hakim Qələndər Aslanov açaraq tələbələrimizin aprelin 18-dən başlayan Zəfər festivalı yarışları ilə eyni vaxtda keçirilən marafon yarışlarında da uğurla təmsil olunmasını yüksək qiymətləndirib. Qeyd edib ki, 2016-cı ildən bəri Heydər Əliyev Fondunun təşəbbüsü ilə keçirilən bu marafonlarda əvvəllər məsafə 21 km idisə, bu il ilk dəfə 42 km olub. Bu çox böyük məsafədir və tələbələrimizin bu uzun məsafəni qət edərək qazandığı nəticələr kifayət qədər qürurvericidir. 25 min iştirakçının qatıldığı marafonda 42 km-i tamamlayan 26 tələbə, 2 əməkdaş, 21 km yarımarafon məsafəni - aralıq finiş nöqtəsini qət edən 17 tələbə medal və 10 km məsafəni başa çatdıran 31 tələbə sertifikata layiq görülüb.

Tədris işləri üzrə prorektor, professor Anar Ağayev rektor, professor Gəray Gəraybəylinin salamlarını və təbriklərini tədbir iştirakçılarına çatdıraraq, beynəlxalq marafon yarışında və idman sahəsində yüksək nəticələr göstərən tələbələrə və əməkdaşlara dərin minnətdarlığını ifadə edib. Çətin tədris proqramına baxmayaraq, gənclərin nümayiş etdirdiyi fiziki dözümlülük və iradəni xüsusi vurğulayıb. Universitet rəhbərliyinin həm yerli, həm əcnəbi tələbələrə eyni qayğı ilə yanaşdığını söyləyən prorektor, qazanılan uğurları gənclərin asudə vaxtının səmərəli təşkilinin və idmana göstərilən xüsusi diqqətin nəticəsi kimi dəyərləndirib.

Tədbir yüksək nəticə göstərən marafon iştirakçılarına medalların təqdim edilməsi ilə başa çatıb. Cari tədris ilində müxtəlif qurumlar tərəfindən keçirilən yarışlarda Mənsa Paların 6 medala layiq görülməsi böyük rəğbətlə qarşılanıb.

# Şərəfli ömrün müəllim və həkim zirvəsi

**Məhkəmə təbabəti kafedrasının kollektivi dəyərli alim və pedaqoq, tibb elmləri namizədi, dosent Ələkbərov Eldar İskəndər oğlunu 75 illik yubileyi, eləcə də pedaqoji fəaliyyətinin 50, əmək fəaliyyətinin isə 55 illiyi münasibətilə səmimi qəlbdən təbrik edir.**



1951-ci ildə dünyaya göz açan Eldar müəllim 1974-cü ildə ali təhsilini bitirərək humanist bir peşənin ardınca yola çıxıb. Sumqayıt şəhərində 5 il ərzində uşaq cərrahı və uşaq travmatoloqu kimi zəngin kliniki təcrübə qazanıb. Elmə olan sonsuz sevgisi 1980-ci ildə onu doğma universitetin Məhkəmə təbabəti kafedrasına gətirib və müsabiqə yolu ilə assistent vəzifəsinə qəbul edilib. 2006-cı ildə dissertasiya işini uğurla müdafiə edən yubilyar, 40 elmi məqalə, 50 tezis, fundamental dərslik və lüğətlərin müəllifidir.

E.Ələkbərov uzun illər ərzində həm həkim, həm ekspert, həm də pedaqoq kimi fəaliyyət göstərərək öz peşəkarlığı, yüksək mənəvi keyfiyyətləri və insanlara qayğıkeş münasibəti ilə seçilib. Universitetin Problem Komissiyasının üzvü, kafedranın imtahanlar üzrə eksperti və Tələbə Elmi Cəmiyyətinin rəhbəri kimi gənc nəslin yetişməsində böyük xidmətlər göstərib. Onun zəngin həyat və əmək yolu gənc həkimlər üçün daim nümunə olub.

Tələbələri və həmkarlarının dərin sevgisini, hörmətini qazanmış Eldar müəllimi təbrik edir, uzun, sağlam, mənalı ömür və yeni elmi uğurlar arzulayırıq!

**Məhkəmə təbabəti kafedrasının kollektivi**

# "Zəfər Festivalı – 3" idman yarışları davam edir

**Azərbaycan Tibb Universiteti, Yeni Azərbaycan Partiyasının Nəsimi rayon təşkilatı, Bakı şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü və 28 May – Müstəqillik Gününə həsr olunmuş "Zəfər festivalı – 3" layihəsi çərçivəsində keçirilən idman yarışları davam edir.**

"Təbib" Tədris İdman Mərkəzinin müdiri, beynəlxalq dərəcəli hakim Qələndər Aslanov "Təbib" qəzetinə açıqlamasında bildirib ki, bu yarışların proqramına uyğun olaraq 10 idman növü üzrə 18 dəst medal uğrunda mübarizə aparılır. Onun sözlərinə görə, "Zəfər festivalı – 1"-də 10, "Zəfər festivalı – 2"-də 22 universitet komandası iştirak edib. "Zəfər festivalı – 3"-də isə Bakı şəhərində yerləşən 30 ali təhsil müəssisəsinin komandaları yarışır. Bu festivalın bir özəlliyi də odur ki, ancaq həvəskar idmançıların öz gücünü sınadığı yarışlara peşəkar idmançılar buraxılmır.

Universitetimizin oğlanlardan ibarət voleybol komandası "Zəfər festivalı – 3" layihəsi çərçivəsində ali təhsil müəssisələrinin tələbələri və əməkdaşları arasında təşkil olunmuş yarışın final mərhələsində qalib gələrək birinci yeri tutub.

Qadın və kişi əməkdaşlar arasında şahmat və nərd, oğlan və qız tələbələr arasında kamandan oxatma, stolüstü tennis, badminton, oğlan tələbələr arasında dama, oğlan və qız tələbələr arasında şahmat və eləcə də kəndirlə mübarizə yarışları bitib.

Festivalın təşkilində ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin maddi və mənəvi köməyini xüsusi vurğulayan Q.Aslanov, qız və oğlan tələbələr arasında şahmat və kəndirlə mübarizə yarışlarının mayın 16-da, oğlan tələbələr arasında 3x3 basketbol yarışının mayın 23-də, futzal yarışının isə mayın 24-də yekunlaşacağını deyib.

Qeyd edək ki, ali təhsil müəssisələrinin tələbələri və əməkdaşları arasında baş tutan "Zəfər Festivalı – 3" idman yarışlarının təntənəli bağlanış və təltifolunma mərasimi 26 may tarixində keçiriləcək.

**I Müalicə-profilaktika fakültəsinin IV kurs tələbəsi Telman Nurməmmədli Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş zirvə yürüşündə iştirak edib.**



# Tələbəmiz zirvə yürüşündə iştirak edib

9-10 may tarixlərində "Hiking Adventures"in təşkilatçılığı ilə baş tutan yürüş Quba rayonunun Qalaxudat kəndindən başlayıb. Yürüşdə 1 bələdçi və aralarında Azərbaycan, Türkiyə və Qazaxıstan vətəndaşlarının olduğu 10 nəfərlik heyət iştirak edib. Təxminən 8 saat davam edən yürüş nəticəsində dəniz səviyyəsindən 3726 metr hündürlükdə yerləşən Qızılqaya zirvəsinə çıxılıb.

# Növbəti səyyar tibbi aksiya keçirilib

Tədris Stomatoloji Klinikası tərəfindən əhalinin müxtəlif təbəqələri üçün stomatoloji xidmətlərə əlçatanlığı artırmaq və maarifləndirməni gücləndirmək məqsədilə səyyar tibbi aksiyalar davam edir.

Növbəti səyyar xidmət "Ümid Yeri" uşaq sığınacağında keçirilib. Klinikanın həkimləri və rezidentləri tərəfindən uşaqların ilkin stomatoloji müayinələri aparılıb, fərdi məsləhətlər verilib və ağız gigiyenası qaydaları izah olunub.

Bu cür sosial layihələrin gələcəkdə də davam etdirilməsi planlaşdırılır.



## Allah rəhmət eləsin!

Elmi Tədqiqatların İdarə Olunması Departamentinin əməkdaşları elm üzrə koordinator Aytən Şıxəliyevaya oğlu
**Emilin**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

I Uşaq xəstəlikləri kafedrasının əməkdaşları kafedranın assistenti Aytən Şıxəliyevaya oğlu
**Emilin**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Elmi Araşdırmalar Mərkəzinin əməkdaşları iş yoldaşları, baş elmi işçi, dosent Vidadi Xəlilova həyat yoldaşı
**Svetlana Xəlilovanın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Normal fiziologiya kafedrasının əməkdaşları kafedranın baş müəllimi Sevda Əliyevaya bacısı
**Qızqayıt xanımın**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

**AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ**
**AZƏRBAYCAN TİBB UNİVERSİTETİ**

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR:

**Kafedraların dosentləri:**
- Tibbi mikrobiologiya və immunologiya kafedrası - 2 yer
- Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası - 1 yer (0,5 vahid)
- II Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,25 vahid)
- Ümumi cərrrahlıq kafedrası - 1 yer (0,5 vahid)
- Əczaçılıq kimyası kafedrası - 1 yer
- Ortopedik stomatologiya kafedrası - 1 yer (0,25 vahid)

**Kafedraların assistentləri:**
- I Cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- III Cərrahi xəstəliklər kafedrası - 1 yer
- II Mamalıq və ginekologiya kafedrası - 2 yer (0,5 vahid)
- II Mamalıq və ginekologiya kafedrası - 1 yer (0,25 vahid)
- I Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,25 vahid)
- Qidalanma və tibbi ekologiya kafedrası - 1 yer
- Ortodontiya kafedrası - 1 yer (0,5 vahid)
- Terapevtik stomatologiya kafedrası - 1 yer
- Terapevtik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- Terapevtik stomatologiya kafedrası - 2 yer (0,75 vahid)
- Ağız və üz-çənə cərrahiyyəsi kafedrası - 2 yer (0,5 vahid)
- İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası - 1 yer
- İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası - 1 yer (0,5 vahid)
- Yoluxucu xəstəliklər kafedrası - 1 yer (0,75 vahid)
- Uşaq stomatologiyası kafedrası - 1 yer

**Kafedranın baş müəllimi:**
- Əczaçılıq toksikologiyası və kimya kafedrası - 1 yer

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

**AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14**
**Telefon: 597-10-08**

**Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə**

**Kaf edralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqi.
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır.
4. Tərcümeyi-hal. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər və kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifəyə yenidən seçilmək istəməsi, iştirak etdiyi ixtisasartırma kursları, ailə vəziyyəti barədə ətraflı məlumat, yaşadığı ünvan, elektron poçt ünvanı və telefon nömrəsi göstərilməlidir.
5. ATU-nun klinikalarında çalışanlar üçün son beş il üzrə həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski (əgər bal-reytinq cədvəli üzrə qiymətləndirilmə zamanı təqdim edilməyibsə).
8. Şəxsiyyət vəsiqəsinin surəti.
9. Müvafiq elmi dərəcə diplomları və elmi ad attestatlarının surəti.
10. "Pedaqoji peşəkarlığın inkişafı" mövzusunda təlimlərdə iştirakı barədə sertifikatın surəti.

**Qeyd: ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.**

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

"Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun "Təbib" nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0009
Sayı 800